# Ağdaş: abadlıq-quruculuq tədbirləri uğurla davam etdirilir

**Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş sosial-iqtisadi inkişaf kursunun, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilməsi ilə 2015-ci ilin birinci rübündə də ölkəmizin sosial-iqtisadi inkişafı davam etmiş, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunmuş, əhalinin rifah halının daha da yüksəldilməsi təmin edilmişdir.**

Bu il aprel ayının 10-da möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edən dövlət başçısı Azərbaycan iqtisadiyyatının uğurla inkişaf etdiyini diqqətə çatdırmış, ötən rübü ölkə üçün müsbət meyillərlə davam etdiyini bildirmişdir. O, qeyd etmişdir ki, Azərbaycanda dinamik inkişaf təmin edilir və qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olmuşdur.

İclasda qeyd olunmuşdur ki, Ağdaş Şirvan torpağının qədim bölgələrindən biridir. Son bir neçə ildə rayonda aparılan geniş quruculuq-abadlıq işləri rayonun simasını xeyli gözəlləşdirmişdir. Şəhərin infrastrukturu xeyli yaxşılaşdırılmış, yollar abadlaşdırılmış, on minlərlə ağac və gül kolları əkilmişdir. Ötən ildə başlanmış işlər cari ilin birinci rübündə də uğurla davam etdirilmişdir. Bu günlərdə rayon icra hakimiyyətində keçirilən geniş şura iclasında da aparılmış tədbirlər təhlil olunmuş, yeni vəzifələr müəyyənləşdirilmişdir. Hesabat məruzəsi ilə rayon icra hakimiyyəti başçısının birinci müavini Cavid Osmanov çıxış etmişdir. O qeyd etmişdir ki, hesabat dövrü ərzində ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağdaş rayonunda da sosial-iqtisadi inkişafa nail olunması sahəsində mühüm tədbirlər görülmüşdür.

Ulu öndər Heydər Əliyevin adını daşıyan parkda aparılan yenidənqurma işləri davam etmiş, Ağdaş şəhəri ərazisində və magistral yolların kənarlarında 55 min müxtəlif ağac əkilmiş, rayonun Aralbir kəndində 220 şagird yerlik məktəb binası tikilərək istifadəyə verilmişdir. Tofiqi kəndində 220 şagird yerlik, Qarağan-Şıxlar və Qülbəndə kəndlərinin hər birində 180 şagird yerlik və Ərəbşəki kəndində isə 80 şagird yerlik məktəb binalarının və Ağdaş şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması sahəsində işlər davam etmişdir.

Rayonda əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təminatını yaxşılaşdırmaq məqsədilə hesabat dövrü ərzində də təmir işləri davam etdirilmiş, 5.4 km uzunluğunda elektrik xətti əsaslı və cari təmir olunmuşdur. Hesabat dövründə rayonun "Dağ dibi" adlanan ərazisində yerləşən Türyançay fəhlə qəsəbəsinin, Yuxarı və Aşağı Ağcayazı, Şəkili, Qoşaqovaq, Cüvə, Korarx, Pirkəkə və Ərəbocağı kəndlərinin təbii qaz yanacağı ilə təmin olunması üçün yenidənqurma işlərinə başlanılmış, qazla təmin olunan Ağdaş şəhərinin, Ləki qəsəbəsinin küçələrində müxtəlif ölçülü 1065 poqonmetr uzunluğunda qaz xətləri yenisi ilə əvəz olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı rayonda kənd təsərrüfatı işlərinin əlaqələndirilməsi, fermerlərə yaxından köməkliklər göstərilməsi, aqrar sahədə qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına köməklik üçün kənd təsərrüfatı idarəsi yaradılması məqsədilə yeni inzibati binanın tikintisi davam etmişdir.

Rayonda aqrar sektorda məhsul istehsalının və emalının genişləndirilməsi sahəsində də ardıcıl tədbirlər görülmüşdür. Sənaye



əhəmiyyətinə görə əvəzsiz olan və uzun müddət rayon ərazisində yabanı yolla yetişən, kustar üsulla istismar olunan biyan məhsulunun yetişdirilməsi və onun rayonda emalının təşkili üçün tədbirlər görülmüş və bu məqsədlə 978 hektar istifadə olunmayan torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsi təmin edilmiş və 10.6 hektar sahəni əhatə edəcək Biyan tədarükü və emalı zavodunun inşasında tikinti işləri davam etdirilmişdir.

Rüb ərzində yazlıq əkinlər üçün hazırlıq işləri görülmüş və 2766 hektar, o cümlədən 1197 hektar tərəvəz, 101 hektar dən qarğıdalı, 505 hektar kartof, 90 hektar bostan, 873 hektar yonca əkilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 23 yanvar 2007-ci il tarixli sərəncamına uyğun olaraq məhsul istehsalçılarına yardımların verilməsi təmin edilmişdir.

Hesabat dövründə iribuynuzlu mal-qaranın sayı 671 baş, xırdabuynuzlu mal-qaranın sayı 911 baş artmış, rayonda diri çəkidə ət istehsalı 70.4 ton, süd istehsalı 471.8 ton çoxalmışdır.

Bu dövrdə rayonda sahibkarlar tərəfindən 10-dan çox sahibkarlıq obyektlərinin tikintisi davam etmişdir.

Hesabat dövrü ərzində həyata keçirilmiş tədbirlər nəticəsində rayonda keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı 1,2 faiz və ya 717 min manat artaraq 60 milyon 467 min manat, kənd təsərrüfatı məhsulu istehsalı 10,0 faiz və ya 1 milyon 362 min manat artaraq 15 milyon 312 min manat, ticarət xidmətinin həcmi 8,1 faiz və ya 108 min manat artaraq 12 milyon 64 min manata çatmışdır.

2015-ci il üçün rayon büdcəsi 21 milyon 796 min manat, 2014-cü il rayon büdcəsindən 125 min manat çox təsdiq edilmişdir. 2015-ci ilin birinci rübündə rayon büdcəsinin mədaxil hissəsi 4 milyon 481.9 min manat icra olunmuşdur. Rüb ərzində respublika büdcəsindən 3 milyon 600 min manat həcmində dotasiya alınmışdır. Hesabat dövründə rayon büdcəsinin xərclərinin 3 milyon 887 min manatını əmək haqqı və ona üstəlik xərcləri, 98 min manatını ərzaq xərcləri, 105 min manatını kommunal xərcləri, 99.8 min manatını abadlıq və işıqlandırma xərcləri, 157 min manatını isə digər xərclər təşkil etmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ölkəmizdə təhsilin və səhiyyənin inkişafına və əhalinin aztəminatlı ailələrinə göstərdikləri müntəzəm diqqət və qayğı nəticəsində yeni məktəb, uşaq bağçası, xəstəxana, reabilitasiya və diaqnostika mərkəzlərinin tikilməsi, səhiyyə və ümumtəhsil sistemində müxtəlif istiqamətlər üzrə ciddi islahatların aparılması Azərbaycanın gələcəyi üçün sağlam insanların yetişdirilməsinə inamı daha da artırır.

Bu baxımdan Ağdaş şəhərinin yeni inzibati ərazisində tikilmiş Heydər Əliyev Mərkəzi və Olimpiya İdman Kompleksi gənclərin asudə vaxtlarının səmərəli təşkilində, onların peşə, təhsil və digər bacarıqlarının artırılmasında xüsusi rol oynayır.

Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında möhtərəm Prezidentimiz cənab İlham Əliyev qeyd etmişdir ki, əhalinin sağlamlığının qorunması sosial siyasətimizin tərkib hissəsidir.

Ölkə Prezidentinin böyük qayğısı sayəsində son 5 il ərzində Ağdaş şəhərində 100 çarpayı yerlik müasir xəstəxana kompleksi, Qolqəti, Ərəbocağı və Tofiqi kəndlərində həkim və tibb məntəqələri tikilib istifadəyə verilmiş, mövcud səhiyyə müəssisələrinin ən müasir tibbi avadanlıqlar, dərman preparatları və ixtisaslaşdırılmış nəqliyyat vasitələri ilə təchiz olunması istiqamətində ardıcıl və təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Yaradılan şərait nəticəsində mərkəzi rayon xəstəxanası, konsultativ poliklinika şöbəsi və digər səhiyyə müəssisələrində rayon əhalisinə göstərilən tibbi xidmətin səviyyəsi yaxşılaşdırılmışdır. Həkimlər və orta tibb işçilərinin peşəkarlığının artırılması diqqət mərkəzində saxlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il fevralın 2-dən mayın 1-dək bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi barədə tapşırığının icrasına Ağdaşda da uğurla başlanılmışdır. Tibbi müayinənin yüksək səviyyədə keçirilməsi və bu sahə-




də operativliyin təmin edilməsi üçün rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə xüsusi komissiya yaradılmışdır.

Əhalinin aztəminatlı ailələrinə göstərilən diqqət və qayğının artırılması möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daim diqqət mərkəzində saxlanılmışdır. Rayonda 2015-ci ilin birinci rübündə Ağdaş Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 1642 aztəminatlı ailənin 7 min 777 nəfər üzvünə hər ay üçün 256.8 min manat olmaqla, cəmi 770.4 min manat ünvanlı sosial yardım təyin edilib ödənilmişdir. Bu dövrdə rayon üzrə sosial müavinətlərin ödənilməsinə keçən ilin eyni dövründəkindən 170.0 min manat çox olmaqla 1 milyon 688 min manat büdcə vəsaiti yönəldilmişdir. Hazırda Ağdaş Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 198 tək-tənha ahıl və əlil şəxslərə evlərdə sosial-məişət xidməti göstərilir. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən rayonda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ əlilləri və şəhid ailələri üçün 19 fərdi yaşayış evinin tikintisinə başlanılmış və hazırda tikinti işləri davam edir. "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən əmək pensiyasının sığorta hissəsi olan 12760 nəfərin pensiyasının sığorta hissəsində indeksləşmə aparılmış, hər ay üçün əlavə hesablanmış 8 min 503 manat vəsaitin bu ilin yanvar ayından başlayaraq ödənilməsi təmin edilmişdir. Natiq daha sonra vurğulamışdır ki, görülmüş işlərlə yanaşı həlli vacib olan problemlər də mövcuddur.

Bu işlərin həlli üçün ilin qalan müddətində rayon icra hakimiyyəti aparatının müvafiq şöbələri, rayonun idarə, müəssisə və təşkilatları, yerli icra nümayəndəlikləri və bələdiyyələr öz iş fəaliyyətlərini daha səmərəli quracaq, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələrin həyata keçirilməsini təmin edəcəkdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**